*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 347-351*

https://doi.org/10.62837/2025.6.347

**AYTAC HƏMİDOVA**
**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi**
**dissertant**
**aytac.hamidova92@mail.ru**

# RÜFƏT ƏHMƏDZADƏNIN SATİRİK ŞEİRLƏRİNDƏ OBRAZLARIN BƏDİİ TƏCƏSSÜMÜ

**Xülasə**

Bu məqalədə Rüfət Əhmədzadənin satirik poeziyasındakı obrazlar sistemi və onların bədii təcəssümü geniş şəkildə araşdırılıb. Tədqiqat göstərir ki, R.Əhmədzadə satira janrından yalnız gülüş vasitəsi kimi deyil, həm də ictimai eybəcərliklərin tənqidi üçün güclü bir ədəbi silah kimi istifadə edib. O, şeirlərindəki obrazları real həyat müşahidələri və xalq psixologiyasına uyğun təqdim edib. Rüfət Əhmədzadənin poetik qəhrəmanları monoloq formasında danışaraq özlərini cəmiyyətin gözündə ifşa edirlər. Bu üsul oxucunun həmin obrazla birbaşa qarşılaşmasına və onların iç dünyasını daha aydın görməsinə imkan verir. Şairin istifadə etdiyi xalq deyimləri, bədii təzadlar, ironiya və sarkazm kimi vasitələr obrazların həm cəlbedici, həm də düşündürücü alınmasında mühüm rol oynayır. Məqalədə bu xüsusiyyətlər sistemli şəkildə təhlil edilib, R.Əhmədzadə poeziyasının yalnız bədii-estetik deyil, həm də sosial və fəlsəfi yük daşıdığı sübut olunur. Tədqiqat nəticəsində müəyyən edilir ki, Rüfət Əhmədzadənin satirik poeziyası Azərbaycan ədəbiyyatında ədəbi ənənələrlə çağdaş ictimai fikrin qovuşduğu bir məkandır. Onun satirik obrazları oxucuda həm gülüş, həm də düşüncə oyadır; bu isə satiranın əsas funksiyalarından biri kimi ədəbi baxımdan əhəmiyyətli hesab olunur.

***Açar sözlər:*** *Rüfət Əhmədzadə, satirik poeziya, obrazların bədii təcəssümü, monoloq forması, satira və tənqid.*

## Giriş

Ədəbi tənqid və sənət əsərlərinin dərinliyini müəyyən edən əsas amillərdən biri obrazların bədii təcəssümüdür. Xüsusilə satirik poeziyada obrazlar tənqidin güzgüsü kimi çıxış edərək həm cəmiyyətin, həm də fərdin zəif cəhətlərini üzə çıxarır. Rüfət Əhmədzadə isə obrazların təsirli və qabarıq təqdimatı ilə Azərbaycan satirik poeziyasında özünəməxsus yer tutmuşdur. Onun şeirlərində yaradılan satirik obrazlar — vəzifə hərisləri, şöhrət düşkünləri, yaltaqlar və riyakarlıqla yaşayan sosial tiplər — yalnız fərdi xarakter daşımaqla kifayətlənmir, həm də bütöv bir dövrün mənzərəsini əks etdirən ümumiləşmiş sosial-mənəvi prototiplər kimi təqdim olunur.

Müasir ədəbiyyatşünaslıqda Rüfət Əhmədzadənin yaradıcılığı ilə bağlı araşdırmalar artmaqda olsa da, onun satirik şeirlərində obrazların bədii təcəssümü məsələsi hələ tam şəkildə sistemləşdirilməmiş və dərin təhlil olunmamışdır. Bu səbəbdən məqalənin əsas məqsədi Rüfət Əhmədzadənin satirik şeirlərində obrazların

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 347-351*

bədii xüsusiyyətlərini, istifadə olunan ifadə vasitələrini və onların ictimai-mənəvi funksiyalarını araşdırmaqdır.

**Satirik poeziyada obrazların poetik xüsusiyyətləri.**

Azərbaycan ədəbiyyatının inkişaf xəttində satira janrı yalnız gülüş vasitəsi kimi deyil, həm də milli-mənəvi dəyərlərin qorunub saxlanmasında və formalaşdırılmasında mühüm funksiyaya malik bir ədəbi silah kimi çıxış etmişdir. Gülüşün arxasında gizlənən ciddilik, obrazın içində gizlənən ictimai ideya və poetik mesaj satirik poeziyanın ən səciyyəvi xüsusiyyətlərindən biridir. Rüfət Əhmədzadə kimi şairlərin satirik obrazları bu ənənəni davam etdirərək yalnız öz dövrünün deyil, ümumilikdə xalqın ruhani-mənəvi aynasına çevrilir. Bu obrazlar insanları düşündürməyə, güldürərək dəyişməyə, yeri gəldikdə isə güldürmədən üz-üzə gətirməyə xidmət edir. Gülbəniz Babayeva qeyd edir ki: “Satirik əsərlərin əsasında sağlam, işıqlı niyyətlər, bəşəri ideyalar, gələcəyə böyük inam, inkişafa, tərəqqiyə çağırış ruhu dayanır.” [3, s.498].

Bu fikir satirik poeziyanın mahiyyətinə verilən ən obyektiv və geniş baxışlardan birini ifadə edir. Satirik obrazlar zahirən mənfi tipləri, eybəcər hadisələri əks etdirir, lakin onların yaranmasında əsas məqsəd nəqarət etmək deyil, maarifləndirmək, düz yola çağırmaqdır. Rüfət Əhmədzadənin satirik şeirlərindəki obrazlar da məhz bu işıqlı niyyətin poetik təcəssümüdür: onun tənqid etdiyi tiplər — riyakar, yaltaq, vəzifə hərisi, cahil obrazları — əslində cəmiyyətin mənəvi təmizliyinə çağırışın fonunda təqdim edilir. Bu obrazlar vasitəsilə şair yalnız mövcud eybəcərlikləri gülüş hədəfinə çevirmir, həm də gələcək nəsillərə mənəvi saflıq və vicdanlılıq aşılayır.

**Rüfət Əhmədzadənin satirik poeziyasında obrazların xarakterik cəhətləri.**

Rüfət Əhmədzadənin satirik poeziyası özünəməxsus obrazlar sistemi ilə seçilir. Onun yaratdığı satirik obrazlar təkcə konkret fərdlərin deyil, bütöv bir dövrün, cəmiyyətin əxlaqi-mənəvi problemlərinin bədii simvolu kimi çıxış edir. Rüfət Əhmədzadənin satirik poeziyasında tez-tez qarşılaşdığımız obrazlardan biri də öz mənfəətini hər şeydən üstün tutan, şöhrətpərəst və mənəvi baxımdan kasad insandır. Bu tip satirik qəhrəman zahirdə cəmiyyətin ön sıralarında görünür, ancaq daxilən mənasız, məqsədsiz və əxlaqi dəyərlərdən uzaqdır. R.Əhmədzadənin poeziyasında belə tiplər yalnız fərdi çatışmazlıqları ilə deyil, həm də ümumi sosial xəstəliyin simvolu kimi təqdim olunur. Ən ağrılı məqamlardan biri isə budur ki, bu cür nadan və mənəviyyatsız adamlar çox vaxt “önə çıxarılır”, nüfuz sahibi kimi tanıdılır. Onların öndə getməsi əslində cəmiyyətin dəyərlər sistemindəki deformasiyanı və yanlış ölçü meyarlarını göstərir. Məsələn, “İşin yox” şeirində bunu aşkar görürük:

“Şöhrət bazısan, amma çalışmaqda işin yox,
Hər xeyrə-şərə əsala qarışmaqda işin yox.
Arsızlığa bir bax hələ eldən pay umursan,
El xeyrinə bir kəlmə danışmaqda işin yox.” [4, s.10].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 347-351*

Rüfət Əhmədzadənin bu şeirində cəmiyyətin önündə olan, lakin fəaliyyətsiz və mənəviyyatsız insan obrazı satirik tonda təqdim olunur. Şair "şöhrət bazısan" ifadəsi ilə həmin şəxsin yalnız görüntü ilə nüfuz qazanmaq istədiyini göstərir. Obrazın cəmiyyətə fayda vermədiyi, ancaq imtiyaz gözlədiyi vurğulanır. R.Əhmədzadə bu tipləri arsız, riyakar və mənəvi cəhətdən kasad olaraq təqdim edir. Xalqın xeyrinə danışmağa belə üzü olmayan bu şəxslər, ictimai dəyərlərin zəifləməsinin canlı nümunəsidir. Şeirdəki bədii təzad və sarkazm bu tiplərin iç üzünü açmaqla, oxucuda həm tənqid, həm də düşüncə yaradır.

Filologiya üzrə fəlsəfə doktoru Gülşən Ağabəy yazır ki: "Rüfət Əhmədzadənin qəhrəmanları onun müasirləridir" [1, s.131].

Bu fikir şairin satirik poeziyasının əsas sosial mahiyyətini dəqiq ifadə edir. R.Əhmədzadə real həyatda müşahidə etdiyi tipləri poeziyada canlandıraraq dövrün ictimai-mənəvi mənzərəsini poetik güzgüdə əks etdirir. Onun qəhrəmanları uydurma deyil, oxucunun gündəlik həyatda qarşılaşdığı insanlardır və bu, şeirlərə həm inandırıcılıq, həm də aktual məzmun qazandırır. Filologiya üzrə fəlsəfə doktoru Gülşən Ağabəy həmçinin, onu da  qeyd edir ki: " R. Əhmədzadə yaradıcılığında satirik hədəfləri düzgün müəyyənləşdirməklə yanaşı, onları sənətkarlıqla təsvir edir, ayrı-ayrı tipləri gülüş və tənqid hədəfinə çevirir." [2, s. 28].

Tədqiqatçının bu fikri Rüfət Əhmədzadənin satirik ustalığını və bədii mövqeyini dəqiq xarakterizə edir.

Rüfət Əhmədzadənin satirik poeziyasında diqqətçəkən formal xüsusiyyətlərdən biri də şeirlərin monoloq strukturunda qurulmasıdır. R.Əhmədzadə monoloq formasından xüsusilə o zaman istifadə edir ki, obrazın daxili ziddiyyətləri, ikiüzlü yanaşmaları və riyakar mövqeyi daha qabarıq şəkildə görünməlidir. "Tərəzi" şeirində də satirik tipin şəxsiyyəti və mənəvi durumu öz danışığı ilə açılır. Bu şeir həm ironik, həm də sarkazm dolu bir tərzdə dövrün rüşvət və müftəxorluq kimi ictimai eybəcərliklərini bədii dillə təqdim edir.

"Mən səninlə kefimi eyləmişəm çağ, tərəzi!
Yarım arşındı , boyun, gəlhagəlin dağ, tərəzi!
Bu canım tək sevirəm, mən səni, öz canım üçün,
Çünki səndən alıram hər şeyi cananım üçün,
Bir günün xeyri bir ay bəsdi cibişdanım üçün.
Evimə müftə axır qənd, düyü, ət, yağ, tərəzi,
Yarım arşındı , boyun, gəlhagəlin dağ, tərəzi!" [ 5, s. 57].

Şeirdə danışan qəhrəman tərəzini tərifləyirmiş kimi görünsə də, əslində bu "sevgi"nin arxasında gizlənmiş korrupsiya və mənəvi aşınma ifşa olunur. Şairin seçdiyi satirik qəhrəman — ölçü-biçi alətini şəxsi mənafeyi üçün alətə çevirən, haram qazanca öyrəşmiş tipdir. Monoloq şəklində qurulmuş bu şeir vasitəsilə həmin tiplər öz dilləri ilə gülünc və rəzalətli vəziyyətə salınır. Qəhrəmanın "evimə müftə axır qənd, düyü, ət, yağ" kimi etirafları onun həm mənəviyyat, həm də vicdan

baxımından necə aşağıda dayandığını göstərir. Şeirdəki təkrar "yarım arşındı, boyun, gəlhagəlin dağ, tərəzi!" misrası həm ironiyanı gücləndirir, həm də həmin satirik tiplərin absurd düşüncə tərzini karikatura həddində təqdim edir.

**Nəticə.**

Rüfət Əhmədzadənin satirik poeziyası orijinal bədii düşüncə ilə formalaşmış, milli-mənəvi reallıqları özündə ehtiva edən obrazlar sistemi ilə seçilir. Onun satirik şeirlərində yaradılan tiplər — sosial ədalətsizliyə göz yumanlar, öz mənafeyini xalqın rifahından üstün tutanlar, mövqeyini qorumaq naminə yaltaqlığa aludə olanlar — təkcə fərdi portretlər deyil, dövrün ictimai xəstəliklərinin ümumiləşmiş simvoludur. R.Əhmədzadənin bədii təfəkkürü satiranı həm tənqid vasitəsi, həm də mənəvi islahat çağırışı kimi istifadə etməyə imkan verir. Onun satirik portretləri əslində ictimai vicdanı silkələyən ədəbi çağırışlardır.

Bütün bu cəhətlərə əsasən demək olar ki, Rüfət Əhmədzadənin satirik poeziyasında obrazların bədii təcəssümü yalnız poetik ustalığın təzahürü deyil, həm də sosial-estetik mövqenin ifadəsidir. Bu obrazlar vasitəsilə şair cəmiyyətə tənqidi yanaşır, lakin həmin tənqidin arxasında daima islahedici niyyət və mənəvi ucalıq dayanır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Ağabəy G.R. Əhmədzadə satirik poeziyasının obrazlar aləmi. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri.- 2017.- N1.- s. 129-134.
2. Ağabəy G.R. XX əsrin ikinci yarısında satirik poeziya.- Bakı: Elm və təhsil, 2019.- 142, [2] s
3. Babayeva G.. Çağdaş satiranın mövzu və ideya qaynaqları//Ədəbi proses 2019.- Bakı: Hədəf nəşrləri, 2020.- s.498-524
4. Əhmədzadə R.Z. Hələlik. Şeirlər. B. Yazıçı, 1991, 192
5. Əhmədzadə R. Z. Keçmə belə kişidən.- Bakı: Azərnəşr, 1967.- 83, [1] s.

***Айтадж Назар кызы Гамидова***

**ХУДОЖЕСТВЕННОЕ ВОПЛОЩЕНИЕ ОБРАЗОВ В САТИРИЧЕСКИХ СТИХАХ РУФААТА АХМЕДЗАДЕ**

**Резюме**

В данной статье подробно рассматривается система образов в сатирической поэзии Руфаата Ахмедзаде и их художественное воплощение. Исследование показывает, что Р. Ахмедзаде использовал жанр сатиры не только как средство смеха, но и как мощное литературное оружие для критики социальных пороков. Он представлял образы в своих стихах, опираясь на жизненные наблюдения и народную психологию. Поэтические герои Руфаата Ахмедзаде раскрывают себя в глазах общества, говоря в форме монолога. Этот приём позволяет читателю непосредственно соприкоснуться с этим образом и глубже увидеть его внутренний мир. Такие средства, как народные

фразеологизмы, художественные контрасты, ирония и сарказм, играют важную роль в создании привлекательных и побуждающих к размышлениям образов. В статье системно анализируются эти особенности, доказывая, что поэзия Р. Ахмедзаде имеет не только художественно-эстетическое, но и социально-философское значение. В результате исследования установлено, что сатирическая поэзия Руфата Ахмедзаде является местом встречи литературных традиций и современного общественного мнения в азербайджанской литературе. Его сатирические образы вызывают у читателя как смех, так и размышления, что считается литературно значимым как одна из основных функций сатиры.

***Ключевые слова:*** *Руфат Ахмедзаде, сатирическая поэзия, художественное воплощение образов, монологическая форма, сатира и критика.*

**Aytaj Nazar gizi Hamidova**

**ARTISTIC EMBODIMENT OF IMAGES IN RUFAAT AHMEDZADE'S SATIRIC POEMS**

**Summary**

This article extensively examines the system of images in Rufaat Ahmadzade's satirical poetry and their artistic embodiment. The study shows that R. Ahmadzade used the satire genre not only as a means of laughter, but also as a powerful literary weapon for criticizing social ugliness. He presented the images in his poems in accordance with real-life observations and folk psychology. Rufaat Ahmadzade's poetic heroes expose themselves in the eyes of society by speaking in the form of a monologue. This method allows the reader to directly encounter that image and see their inner world more clearly. The means used by the poet, such as folk idioms, artistic contrasts, irony and sarcasm, play an important role in making the images both attractive and thought-provoking. The article systematically analyzes these features, proving that R. Ahmadzadeh's poetry carries not only artistic and aesthetic, but also social and philosophical significance. As a result of the research, it is determined that Rufat Ahmadzadeh's satirical poetry is a place where literary traditions and contemporary public opinion meet in Azerbaijani literature. His satirical images evoke both laughter and thought in the reader; this is considered significant from a literary point of view as one of the main functions of satire.

***Keywords:*** *Rufat Ahmadzadeh, satirical poetry, artistic embodiment of images, monologue form, satire and criticism.*

**Rəyçi: Filologiya elmləri doktoru, Akademik Rafael Hüseynov**